# HƏYAT UĞRUNDA MÜBARİZƏ

## *Ağıla güvənc, özünə inam nağıl qəhrəmanlarının əsas xüsusiyyəti kimi*

Şəfəq Nasir uşaq hekayələrində (nağıllarında) uşaqlarda müstəqil düşünmə qabiliyyətinin inkişaf etdirilməsinə, müxtəlif psixoloji problemlərin həllində öz gücünə güvənərək çıxış yolu tapmaq bacarığını aşılamağı, inkişaf etdirməyi qarşısına məqsəd qoyub.

Birinci növbədə uşaq qarşısına çıxan hər hansı bir çətinliyi həll etmək üçün özü düşünərək çıxış yolu tapmağa çalışmalıdır. Bunun üçün uşaq bilməlidir ki, qarşısına çıxan çətinliyi o özü həll etməlidir. Şəfəq Nasirin "Baba qurdu necə aldatdı" nağılında təqribən belə bir motiv əksini tapır. Qocalmış, gücdən düşmüş bir kişi öz qarısının tapşırığı ilə meşəyə gedib odun gətirməlidir. Meşə isə yaşayış yerindən xeyli aralıdır. Qoca baltasını da götürüb meşəyə gedir və buradan odun yığmaq istəyir. Bu vaxt onun qarşısına bədheybət bir yırtıcı çıxır: "Bir gün qarı qocasına dedi.

-A kişi, çörək bişirmək istəyirəm, odunumuz qurtarıb. Get meşədən odun gətir.

Baba baltasını çiyninə alıb yola düzəldi.

Qoca ara asta, ara yüyrək, axır ki, gəlib meşəyə çatdı. Baltasını çiynindən aşırıb qabağındakı ağaca vurmaq istəyirdi ki, birdən ağacın dalından qoca, arıq boz qurd çıxdı. Baba əl saxlayıb matdım-matdım ona baxdı. Nə vaxtdı bu meşəyə gəlib gedirdi, ama belə qorxunc qurda rast gəlməmişdi.

Özünü itirmədi, baltasının sapından bərk-bərk yapışdı. Qurd gözlərini işıldada-işıldada babaya baxdı, baxdı, birdən adam kimi dil açıb dedi: -Baba, mən səni yeyəcəm, özün öz ayağınla qabağıma çıxmısan".Əlbəttə, qoca cavan olsaydı bu yırtıcının bədheybətliyi heç onun gözünə görsənməzdi. Canavarla bacarmaq üçün bircə baltası da bəs eləyərdi. Amma indi o qocalıb əldən düşüb canavarla əlbəyaxa savaşa bilməz. Bəs onda necə olsun? İlk baxışdan elə görünür ki, qocanın heç bir çıxış yolu yoxdur.

Şəfəq Nasir bir yazıçı olaraq uşaqların psixologiyasını yaxşı bilir. Ona məlumdur ki, belə məqamlarda uşaqlar hadisənin gedişini maraqla izləyirlər. Görəsən qoca canavarın əlindən xilas ola biləcəkmi? Axı o gücsüzdür, heç baltanı da yaxşı işlədə bilmir. Uşaqların həyəcanla gözlədiyi nağılın davamından düşüncə işığı görünür. Yəni qocanın fiziki gücü yoxdursada, onun ağlı var, düşüncəsi var. O öz ağlı, düşüncəsi ilə ağılsız yırtıcıya qarşı savaşa bilər. Və hətta ona qalib də gələ bilər.

Qoca qurdun tamahkar olduğunu bildiyi üçün onu bir az da şirnikləndirir. Hətta ona deyir ki, evə getsək, təndir qalasaq, onda sən qarımı da, məni də elə hətta təndirdə qızardıb yeyə bilərsən.

Tamahkar yırtıcı qocanın bu şirnikləndirici sözlərinə aldanır. Qoca meşədən odun da toplayıb qurdla birgə evə gəlir. Təndiri qalayır, yaxşı köz düşdükdən sonra qurda təklif edir ki, təndirə baxsın közlərin yaxşı olub-olmadığını söyləsin. Acgöz yırtıcı təndirin başından əyilib közlərə baxarkən qoca onu itələyib təndirə yıxır. Beləcə qurd məhv olub gedir.

Şəfəq Nasirin dili uşaqların marağını cəlb edəcək qədər şirindir. Nağıl dili ilə danışmağı (yazmağı) yaxşı bacarır, ona görə də əhvalatı yüyrək danışa bilir. Darıxdırıcı motivə yol vermir. Yeri gəldikcə xalq arasında işlənən ifadələrdən də bacarıqla istifadə edir: "Ara asta, ara yüyrək", "odunlardan təndirə doldurub alanqı verdi". Alanqı ifadəsi çox maraqlıdır. Sözün kökü alov sözüylə bağlıdır. Al qırmızıdır, od rəmzidir... beləcə Şəfəq Nasirin uşaqları düşündürmək bacarığı, onların söz ehtiyatını artırmaq istəyi onun məlumat verdiyimiz nağılında kifayət qədər yerinə yetir.

Bizə elə gəlir ki, Şəfəq Nasir bu nağılında yırtıcı obrazını canavar adlandırmalı idi. Çünki canavar yırtıcıdır. Qurd mifaloji obrazdır. Türk xalqları üçün xilaskar rəmzidir. Beləliklə, uşaqların mif və həqiqət anlayışları arasındakı məlumat durumları nəzərə alınmalı idi. Bu nağılların yeni nəşrində güman ki, Şəfəq Nasir bunu nəzərə alacaq.

"Zalım kişi" nağılı (hekayəsi) dəcəlbedicidir. Uşaqlar üçün maraqdoğurucudur. Ən başlıcası, düşündürücüdür. Bu hekayədə əsas motiv insanın insana hörməti, ehtiramı əsas təqdiredici motiv kimi götürülür. Qəddarlığı, zalımlığı ilə tanınan bir kişi özünün zorunu daim öz arvadı üzərində göstərir. Guya bununla hörmət və nüfuz qazana bilər. O qədər özündən razı olur ki, hətta kəli də boyunduruğa qoşmaq üçün zor işlətmək istəyir. Kəl isə onun zoruna tabe olmur, yerindən tərpənmir. Bunu görən öz ərindən hər gün zülmlər, əzablar görən qadın qabağa gəlir, kələ nəvazişlə yanaşır və onu buynuzundan tutub arabaya yaxınlaşdırır. Qadının əli ilə arabaya qoşulan kələ baxan kişi təəccüblənir: "Bunu görən kişi barmağını dişləyir: "Ey dili qafil, sən arvadda olan gücə bax. Elə bil hər gün təpiyimin altında büzüşən, səsini içinə salan arvad bu döyül. Gəl indi bundan sonra onu döy görüm necə döyürsən. Birini ilişdirsə, yerimdəcə ölərəm". O günnən bu zalım kişi dönüb oldu qafil kişi. Nə bir dəfə arvadına əl qaldırdı, nə də ağır söz dedi. Eləcə səsini içinə salıb fikrə getdi. Bu minvalla günlər ötdü, kişi dərd-qüssədən sapsarı saralmağa, əriyib çöpə dönməyə başladı. Bunu görən arvadı da dərd götürdü. Fikirləşdi ki, görən nə olub ki, dağ boyda kişi günü-gündən əriyib geri gedir". Təkcə elə bu təsvir bəs eləyir ki, tərəflərin mənəvi çəkisi aydın görünsün, kimin-kim olduğu bilinsin. Nağılın dinləyicisi, hekayənin oxucusu da hadisələrin sonunun necə qurtaracağını düşünür. Bəlkə qadın özünün zoruna güvənib kişisi ona bir də əl qaldırsa, elə onun öz üsulu ilə ona cavab verəcək. Müəllif hekayənin sonluğuna tələsmir. Hər iki tərəfin daxili aləmində gedən prosesi, psixoloji durumu asta-asta, yetərincə oxucusuna çatdırmağa çalışır.

İstər-istəməz dinləyici (oxucu) düşünür ki, nə üçün kəl kişiyə daha zorlu, güclü kişiyə tabe olmur, ancaq həm də bu kişinin hər gün döyüb incitdiyi, hamının zəif bildiyi qadına tabe olur. Nağılın maraq doğuran tərəfi ondadır ki, dinləyici ( oxucu) hər yerdə, hər zaman zorun qalib gələcəyini qəbul etmir. Demək isti münasibət, səmimi münasibət bir çox hallarda nəvazişli münasibət ən çətin problemləri, hətta zorun bacara bimədiyi problemləri belə həll edir. Ancaq insanlar arasındakı anlaşılmazlıqlar da yalnız səmimi yanaşma ilə aradan qalxar. Hekayənin sonunda Şəfəq Nasir ailədə harmoniyanı, ahəngi təmin edən əsas amilin səmimiyyət olduğunu diqqətə çatdırır. Burada bir məqama da diqqət vermək olar. Qadın ərindən nə qədər pislik görsə də, münasibətində onun kişilik nüfuzunu qorumağa çalışır. Kişi hər vaxt bilmək istəyir ki, necə olub belə güclü, qüvvətli bir qadın onun təzyiqlərinə dözüb, etiraz etməyib. Ərinin təkidləri qarşısında qadın gücünün mahiyyətini izah edir: "Bunu eşidən arvad ərinə dedi: -A kişi, nahaqdan ürəyinə dərd salıb özünü üzmə. Mənim gücümə də fikir vermə. Sən nə qədər zəif olsan da, kişisən. Necə ki, həmişə məni döyürdün, eləcə də döy. Nə sənə əl qaldırmaram, nə də üzünə qayıtmaram. O gündən kişinin rəngi-rufu özünə qayıtdı. Zalımlığını da qoydu bir qırağa. Nə arvadı döydü, nə də söydü. Can bir qəlbdə ömür sürdülər". Beləliklə, qadın alicənablığı, səbri, dözümü ilə zoruna güvənən kişiyə qalib gəlir. Göründüyü kimi yazıçı da hekayəsinin bədii estetik təsiri ilə oxucuya çatdırır ki, insan ağıla güvəndikcə daha üstün olur. Zoruna güvənən kişinin məğlubiyyəti ona bənzər insanlar üçün yaxşı ibrət dərsidir.



"Yeddinci ilan" nağılı öz mənbəyini Azərbaycan folklorundan götürüb. Doğrudur ilanlar haqqında təkcə Azərbaycan nağıllarında yox, dünya xalqlarının nağıllarında da geniş bəhs olunur. Bəzən ilanların qisasçılığı, bəzən xeyirxahlığı, müdrikliyi, bəzən ilanların hiyləgərliyi motiv olaraq nağıllarda öz əksini tapır. Şəfəq Nasir də "Yeddinci ilan" hekayəsində folklordan gəlmə motivi bir qədər reallığa yaxınlaşdıraraq işləmişdir. Onun təsvir elədiyi saçaqlı kəndi və həmin kəndin sakini soltan kişi əminamanlığın, sakit həyatın rəmzi olaraq təsvir olunur. Saçaqlı sözünün xalq arasında gümrah, yaxşı, təminatlı mənaları var. Soltan adı da müstəqillikdən, özünə güvəndən, öz həyatını təmin etməkdən xəbər verir.

Ancaq belə bir ahəngdar, halal həyat yaşayan kəndin öz zəhməti ilə dolanan bir sakininin həyatının ahəngi birdən birə pozulur: "Hə... günlərin bir günündə yayın lap oğlan çağında kişi çöldən gəlib qapıdakı tutun kölgəsində palazın üstündə oturub dincini alırmış. Bir də gördü ki, par-par alışıb-yanan bir şey evə sarı sürünür. Belə baxanda gördü ki, bu metrə yarım uzunluğunda olan bir ilandı. Kişi bayaqdı, ağaca dirənmiş yabanı götürüb irəli cumur. Qəfildən var gücüylə yabanı ilişdirir ilana... ilan dilini çölə çıxarıb zəhərini tökür. Ağzı açılıb-yumulur., canı çıxır. Kişi həyətin ayağında dərin bir çala qazıb ilanın ölüsünü basdırır. Bir neçə gün ötür". Beləliklə, kişi bir neçə ilanı öldürür. Ayrı-ayrı günlərdə öldürdüyü ilanların vahiməsi onun sakit həyatını pozur, düşüncəsini dağıdır, yuxusuna vahimə qatır. Xalq arasında "yeddi qardaş ilan" əfsanəsi var. Guya bu ilanlardan birini öldürdünsə, digər qardaşı qisas alacaq. Hekayə də həmin qisas motivi üzərində qurulur. Nəhayət, müəllif kəndlinin öz yerindən, yurdundan didərgin düşməsinin səbəbini həmin qorxu ilə bağlayır. Nağıl diliylə maraqla danışılan əfsanədən aydın olur ki, həmin yeddi qardaş ilanın sonuncusu onu uzaq ölkədə də gedib tapacaq. Belə də olur. Doğrudur, hekayədə yeddinci ilanın ölümünü də görürük. Amma nəticə olaraq başa düşürük ki, təbiətə qəsd etmək olmaz. Təbiətə qəsd edərsən, təbiət onun əvəzini yeddi dəfədən də artıq səndən çıxar. Bu günlərdə Qarabağ müharibəsi haqqında verilən məlumatlar arasında belə bir xəbər də yer alır; erməni faşistləri meşələri yandırmaq üçün fosforlu maddələrdən istifadə edirlər. Bu, əslində bəşəri cinayət olmaqla təbiətə qəsdir. Demək, bütün hallarda ekoloji mühitə qəsd eləmək insanın özünə qəsdi kimi başa düşülməlidir. "Yeddinci ilan" hekayəsindəki əfsanə - əhvalatın əsas qayəsi budur ki, insanlar təbiəti toxunulmaz və müqəddəs bilməlidir.

Xülasə təhlilini vermək istədiyimiz nağılların qəhrəmanları əsasən özlərinə, öz ağıllarına güvənən insanlardır. Onlar öz zəhmətləri ilə yaşamağı, kimsəyə zərər vurmamağı düşünürlər. Hətta onlardan hər hansı biri zalım kişi son nəticədə arvadının humanizmi, insanlığı ilə səhvini anlayır. Daha düzgün, daha doğru yola gəlir.

Şəfəq Nasir öz obrazlarına - nağıl qəhrəmanlarına nifrət bəsləmir. onların insani heysiyyətlərini qorumağa çalışır. Bütün hallarda onun nağıllarında insanlıq, humanizm qalib gəlir. Halallıq üstün tutulur. Bir sənətkar kimi Şəfəq Nasir cəmiyyətin həyatını dərindən müşahidə edir. əsas düyün nöqtələrini tapır. Münasibətlərdəki təzad yaradan, ziddiyyət yaradan məqamlara diqqəti yönəldir.

Doğrudur biz Şəfəq Nasirin nağıllarını uşaqlar üçün yazılmış əsərlər kimi qəbul edirik. Ancaq bu nağıllarda çox ciddi məqamlar az deyil. Xüsusilə, zalım-məzlum, insan-təbiət, böyük-kiçik, güclü-zəif tərəfləri arasındakı münasibətlər yazıçı mütəfəkkir mövqeyindən aydınlaşdırılır.

Şəfəq Nasirin nağılları əsasında uşaqlar üçün maraqlı cizgi filmləri, qısa metrajlı bədii filmlər də çəkilə bilər. Zənnimcə bütün bunların yeni nəsil üçün müstəqil düşüncə imkanlarına güclü təsiri olardı.

*03.11.2020*